Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm dəyişikliklər...

**Ermənistanda mütləq diktora çevrilən baş nazir Nikol Paşinyan hakimiyyət dayaqlarını möhkəmləndirmək üçün özünə rəqib saydığı bütün dairələri sıradan çıxarmaq yolunda indi ən sərt üsullardan belə faydalanmağa hazırlaşır. Hazırda görünən budur ki, baş verənlər fonunda ermənilərin millət və dövlət kimi formalaşmasında rol oynayan əsas amillərlə hakimiyyət arasında ciddi ziddiyyət yaranıb.**

Söhbət kilsə, Rusiya faktoru, diaspor və "Qarabağ klanı"ndan gedir. Nikol Paşinyanın diasporla münasibətləri kifayət qədər ziddiyyətlidir. Kilsə və Rusiya ilə münaisbətləri də olduqca gərgindir. "Qarabağ klanı" ilə onun arasında isə əsl düşmənçilik gedir.

Bütün bunların nəticəsi isə Ermənistan üçün fəlakətli hal sayılır. Əvvəla o baxımdan ki, diaspor, kilsə və Rusiya faktorunun aradan qalxması Ermənistanın bir dövlət olaraq tarixin arxivinə gömülməsini şərtləndirir. Çünki qeyd edilən amillər olmadan Ermənistanın bir dövlət olaraq varlığını davam etdirməsi sadəcə mümkünsüzdür. Ölkənin ehtiyatları, mövcud potensialı kənar yardımlar olmadan onun mövcudluğunu davam etdirməsinə imkan vermir. Bu mənada, yaranmış vəziyyət işğalçı ölkənin bir dövlət olaraq varlığını davam etməsini ciddi sual altına alır. Ekspertlər hesab edir ki, elə bu vəziyyət də Dağlıq Qarabağ münaqişəsinin həllində tamam yeni bir vəziyyət yaratmaq iqtidarındadır. Çünki varlığı artıq sual altına düşməkdə olan Ermənistanın işğal siyasətini davam etdirməsi mümküsüz sayılır.

Başqa bir tərəfdən, "Qarabağ klanı" və komandasının bir sıra üzvləri ilə düşmənçilik siyasəti yaşayan Paşinyanın onlara qarşı gedişləri Ermənistanda ciddi daxili qarşıdurmanın əsaslarını qoymaqdadır. Belə qarşıdurma da Ermənistanın əhəmiyyətli dərəcədə zəifləməsi və işğal siyasətini davam etdirməsinin daha da çətinləşməsi deməkdir. Belə görünür ki, ümumiyyətlə, qarşıdakı günlər ərzində Ermənistanı böyük daxili qarşıdurma gözləyir. Ən azından, Paşinyanın Los-Ancelesdə səsləndirdiyi fikirlər onun "Qarabağ klanı"na qarşı daha amansız olacağını göstərir. Bu xüsusda Paşinyan vurğulayır ki, "Qarabağ klanı"nın əsas təmsilçiləri olan Ermənistanın keçmiş prezidentləri Robert Köçəryan və Serj Sarkisyanın bundan belə ölkədə siyasi fəaliyyətləri ni davam etdirmək şansı yoxdur: "Ermənistan əhalisi həm Köçəryanın, həm də Sarkisyanın və tərəfdarlarının 2018-ci ildəki bütün bəyanatlarını şərh edib, bu günə qədər də qiymətləndirməyə davam edir. Bu adamlar başa düşmürlər ki, daha Ermənistanda siyasi fəaliyyətlərini davam etdirmək şansları yoxdur". Paşinyan eks-prezidentlərin və tərəfdarlarının "Köçəryan və Sərkisyanının erməni dövlətçiliyini qurmaq üçün tər tökdükləri barədə " ifadələrini əsassız adlandırıb: "Tər tökub nə ortaya çıxartdılar? Öz milyonlarını? Bəli, Əgər bunları demək istəyirlərsə, yaratdıqları "qəsrləri" və yığdıqları milyonları tezliklə itirəcəklərinə böyük təhlükə mövcuddur. Mən buna ümid edirəm. Əslində onlar yığdıqları milyonları çoxdan itirməli idilər, lakin hələ də böyük maliyyə və iqtisadi qaynaqlara sahibdirlər. Onların oğurladığı pullar son qəpiyinə kimi geri qaytarılacaq. Mən bundan öncə də dəfələrlə Serj Sarkisyanın ailəsinin korrupsiya yolu ilə dövlət büdcəsindən mənimsədikləri külli miqdarda pulları geri qaytarmağa borclu olduqlarını vurğulamışam. Artıq bir hissəsini geri qaytarıblar, ancaq indi qalan hissəsini geri qaytarmalıdırlar. Görəsən, Sarkisyanın ailəsi və Robert Köçəryan bu milyonları hansı qabiliyyətlə və necə əldə ediblər? Bunlar vunderkinddirləmi? Bəs, indi niyə bu milyonları qazana bilmirlər? Biz onları narahat edirik? Onda pul qazanmaq üçün xaricə getsinlər". Paşinyanın sözlərinə görə, həm Köçəryanın, həm də Sarkisyanın maddi imkanları, siyasi ambisiyalarından asılı olmayaraq, 1998-ci ildəki status-kvoya qayıtmalıdır. Aydındır ki, "Qarabağ klanı" Paşinyanın məsələyə bu şəkildə yanaşmasını cavabsız qoymayacaq. Onların baş nazirə qarşı gedişləri isə Ermənistan daxilində vətəndaş müharibəsinin belə başlanmasını istisna etmir.

"1-in.am" portalı isə yazır ki, "Qarabağ klanı" ilə yanaşı, Paşinyan komandasının artıq keçmiş üzvlərilə qarşıdurma da Ermənistana müsbət heç nə vəd etmir: "Ermənistan Milli Təhlükəsizlik Xidməti (MTX) direktorunun müavini, polkovnik Eduard Martirosyan bu xidmətin direktoru vəzifəsinin müvəqqəti icraçısı təyin edilib. Baş nazir eyni zamanda polis rəisinin birinci müavini, polkovnik Arman Sarkisyanın polis rəisi vəzifəsinin müvəqqti icraçısı təyin edildiyi barədə məlumat verib. Baş nazir deyib: "Məlumat verirəm ki, Ermənistan qanunvericiliyilə müəyyən edilən bu status və bu statusda olan bizim həmkarlarımız iki sistemə də rəhbərlik etmək üçün tam səlahiyyətə malikdirlər. Biz formal olaraq prezidentin müvafiq fərmanı imzalamasını və dərc etdirməsini gözləyirik". Ehtimal edilir ki, parlament qanunvericiliyə əlavə və dəyişikliklər edənə, polis rəisi və MTX direktoru vəzifəsi siyasi post olanadək baş nazir yanında olan bu xidmətlərə vəzifələri müvəqqəti icra edənlər rəhbərlik edəcək.

Sosial şəbəkələrdə son günlərin kadr dəyişiklikləri haqqında danışanların və böhranla, hətta hakimiyyətin ölümü ilə bağlı xəbərdarlıq edənlərin hamısını isə narahat edən olanların ölkə daxilində yaradacağı qarşıdurmadır. Artur Vanetsyanın və Valeri Osipyanın istefaları ilə inqilab komandası böhran keçirir. Bizim istəyib-istəməyimizdən asılı olmayaraq, MTX və polisdəki, demək olar ki, bütün yüksək rütbəli məmurlar öncəki sistemlə əlaqəlidir.

Paşinyan, mahiyyətcə, "yarımçıq mübarizə" mərhələsinin başa çatdığını elan edir, son kadr dəyişikliklərinin məntiqini də məhz bunda axtarır. Amma bunun yaradacağı qarşıdurmanı, görünür, Paşinyan əvvəldən hesablamayıb. Buna müvafiq olaraq, hakimiyyət zəifləyib, siyasi fəaliyyətin effektivliyinin yüksəldilməsi baxımından heç nə qazanmayıb. Paşinyanın bu gedişlərindən sonra, şübhəsiz, Ermənistanda daxili ziddiyyətlərin yüksəlməsi qaçılmaz olacaq. Çünki istefaya gedənlər revanşa hazırlaşır. Bu mənada payız, həqiqətən də, qaynar olacaq. İnqilabın "məxməri" qurtardı: Paşinyan qəti zərbə hazırlayır. Amma əks zərbələr Ermənistanı daha da zəiflədəcək"

Daxili qarşıdurmalarla yanaşı, Ermənistanın Rusiya ilə münasibətlərinin getdikcə pisləşməsi də artıq birmənalı həqiqətdir. Buna bir neçə faktor təsir edir. Onlardan biri budur ki, Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həbsdə saxlanması İrəvanla Moskvanın münasibətlərini gərginləşdirən amillərdən sayılır. İkincisi, Paşinyan hakimiyyəti Rusiyanın maraqlarına zidd olaraq Qərblə, ABŞ-la yaxınlaşmaq kursundan imtina etməyib. Moskva isə bunu xoş qarşılamır. Eyni zamanda Ermənistanda Rusiya biznesinin sıxışdırılması da Moskva-İrəvan münasibətlərini gərginləşdirir. Başqa bir amil silah məsələsi ilə bağlıdır. Ermənistanın müdafiə naziri David Tonoyan bəyan edib ki, ölkəsi Rusiyadan silah alışını başqa dövlətlərlə də əvəz edə bilər. Rusiya hakimiyyətinə qarşı olanlara Ermənistanda sığıncaq verilməsi də Kremldə xoş qarşılanmır. Dövlət Dumasının deputatı Konstantin Zatulin isə Moskva-İrəvan münasibətlərini gərginləşdirən digər bir amilə toxunub. O, Ermənistan sürücülük vəsiqəsinin Rusiyada və əksinə istifadə edilməməsini mənfi hal sayıb. Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərin sürücülük vəsiqələrinin istifadəsi bir-birinin ərazisində yararlıdır. Ancaq Rusiya bu məsələdə bir şərt qoyub: rus dili ikinci dövlət dili olmayan üzv ölkələrin sürücülük vəsiqələri federasiyada etibarsızdır. Ermənistan yeganə ittifaq üzvüdür ki, rus dilinin dövlət statusu yoxdur. Konstantin Zatulin bunun qarşılıqlı münasibətlərə mənfi təsir etdiyini vurğulayır. Bütün bunlar Rusiyanın Ermənistana qarşı münasibətlərində ciddi dəyişikliklərə rəvac verir. Moskva artıq İrəvanın etibarlı tərəfdaş olmadığını aydın görür. Məhz bu durumda Rusiyanın Ermənistan üzərindən əlini çəkməsi qaçılmaz sayılır. Rusiya amilinin sıradan çıxması isə Ermənistanı daha da zəiflədən mühüm məqamlardan sayılır.

Burada maraq yaradan digər cəhət diaspor faktı ilə bağlıdır. Artıq diaspor da Paşinyan iqtidarına etibar etmir və baş nazirin ziddiyyətli açıqlamaları diasporu Ermənistandan uzaq salır. Burada onu da xatırladaq ki, Paşinyan diaspor komitəsini ləğv edəndə hətta kilsə də ona qarşı çıxdı. Ümumerməni katolikosu ona açıq məktub ünvanlayaraq, erməni diasporunun fəaliyyətini yüksək qiymətləndirmiş, komitəyə ehtiyacın olduğunu vurğulamışdı. Amma Paşinyan mövqeyindən geri çəkilmədi və elə o vaxtdan onunla diaspor arasında ziddiyyətlər dərinləşdi.

Ermənistana diaspor yardımlarının azalması da bununla bağlıdır. Kilsə faktoru da burada öz sözünü deyir. Paşinyanın Los-Ancelesdə keçirdiyi mətbuat konfransında baş nazirin kilsə ilə münasibətlərindəki gərginliyin həllini tapmadığı məlum olub. O bildirib ki, Ermənistan xalqı hökumətin Ümumerməni Kilsəsinin daxili işlərinə qarışmağı tələb edərsə, hakimiyyət təcili olaraq bunu müzakirəyə çıxarıb uyğun addımlar atacaq. Kilsənin buna qarşı çıxması və Paşinyan əleyhinə fəaliyyəti isə hakimiyyətlə onun arasında ziddiyyətləri sadəcə dərinləşdirir. Bütün bunlar Ermənistanın böyük ziddiyyətlər dövrünə qədəm qoyduğunu da açıq nümayiş etdirir. Belə vəziyyətdə Ermənistanın onu ayaqda saxlayan əsas dayaqlardan məhrum olması isə onun bir dövlət kimi məhvə getməsini qaçılmaz edir. Elə bu da, öz növbəsində, İrəvanın mövcud Qarabağ siyasətini davam etdirməsini mümkünsüz hala gətirir. Aydındır ki, belə vəziyyət Qarabağ münaqişəsinin həllini əhəmiyyətli dərəcədə tezləşdirmək iqtidarındadır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**